

■ Könül HƏSƏNQULU

## QADININ ƏSR SURƏSİ

And olsun axşamçağına,
İkindi vaxtına, əsr namazına, zamana və ya
Peyğəmbərin əsrinə ki,

Mən idim o sübh çağı səmada!
Gecədən doğan Günəş kimi!

Gözlərimin yaşıyla yudum Qədr gecəsini...

## AQNOSTİK MƏBƏDİ

Mənim rütubətli təkliyim
Məbədə çevirdi bu uçuq evi.

İndi dinsiz məbəddir evim...

Gecənin lal qaranlığında
Duyursanmı Şimalda kilsə zənglərini?
Odur mənim nəbzim...
Çırpınır gecələr
Boynumun şah damarında.

Mənim dinsiz məbədimdə siqaret kötükləri
Yarışır kilsə şamlarıyla;

Hər közərtisində yanır eyni dua;
Çəkilir ciyərlərimə,
Üflənir pəncərədən küləyin arfasına -
Tel-budaq yanvar ağaclarına.

İbadəəət -
Mənim dodaqlarımda!!

Gecənin kor qaranlığında
Bir alışar,
Bir sönər o vəhşi dua
Dodaqlarım arasında..
Mənim közərən gecəmdə
Ulayır sübhəcən bir həzin sancı -
Bıçaqtək sancılıb döşümə
Bu körpə çığırtıları...

Mənim dinsiz məbədimdə
Sonsuz səmadır indi qara külqabı -
Sonuncu siqaret kötüyü ilə
Sökürəm dan yerini ilmə-ilmə...

Yuxulayır dilimdə o vəhşi dua...
Yumub dodaqlarımı
Qıvrılıb yatıram ağrıların ağuşunda.

## SƏHRADA GÖY QURŞAĞI

I

Səhrada karvan izi -
Candakı möhürlər...

Sevda indi
Ağrı dilində dinər.

II

Fırtına bitdi!

Külək sovurdu havaya
Səhradan ayaq izlərini.

Susur ağrılar...
Susur sevda...
Hamar səhra...

Sular kəsildi!

Göy qurşağı dolanıb canıma...

III

SUS!
Mən inanmıram insan səsinə!

Susursa ağrılar,
Quruyubsa vahə,
Sözlərəmi inanım indi?!

Bitdi!..
Sevdaaa bitdi...

Sayıram səhrada
Gözdən itən dəvənin ayaq izlərini...

## "QUM KİMİ" YORĞUN

O kürdün mahnılarından sonra
Bircə çırtmayla da öldürmək olar məni...

Yaxın gəl...

Qapıları bərk-bərk bağladım, çəkdim pərdələri!
"Dava-dava" oynamaqdansa,
Mən təslim oluram.

Qaytar indi
Cibindəki buğdaları geri - ovuclarıma,
Cücərmədi səndə o buğdaların heç biri.

Qaytar!
Sonra bir çırtma vur boynuma.

Bu dəfə dəqiq öləcəyəm... Vur! Qorxma...

## QARANLIQ

Gecənin
Silahları susdurub köndələn yıxan vaxtıdır.

Bax...

Ovuclarıma sıxmışam
Başımın üstündə qaynaşan qara qarğaların
Kin vurnuxan qanadlarını.

Və susdurmuşam,
Susdurmuşam içimdə
Züleyxanın qara zindan misalı,
Yusifə zülm edən məkrini,
Ağrılarını...

Gecənin
Kor qaranlığıdır.

Gəl...

Ayı
Dağların ətəyinə,
Günəşi
Bir körpənin əllərinə tapşırmışam...

Tutsunlar,
Saxlasınlar sabahacan...

## KƏDƏR

Yastığı qucaqlayıb ağlamaq - mənlik deyil!
Bu qadınca hərəkət
Mənə gülünc gəlir.

Mən kədəri qucaqlayıb susuram -
Kədərlə qol-boyun gəzir,
Kədərlə bir fincandan içir,
Kədəri saçlarımda uzadıır-uzadıır,
Sonra qısaldıram!

Bərbərimin əlindədir
Kədərin boy-buxunu!

Toxundumu saçıma qayçının ucları -
Ordaca kədərin alır canını!

## YUXUSUZLUQ

Avqustda
Gecənin ən dəli saatlarında çökər yuxusuzluq...

Güzgünün önündə
Saçımın buruqlarını sayıram:
Bir,
İki,
Üç,
Dörd,
Beş,
Altı,
Yeddi,
Səkkiz.

Sonra onları sənin bir əlinə - beşə,
Sonrasa hər iki əlinə - ona vururam.

Hesablayıram
Sənin günorta sığalından sonra
Barmaqlarının arasında
Haçalanıb çoxalan buruqları.

Hə... Yəqin ki, hardasa səksən olardı,
On hissəyə ayrılmış buruqlar.
Daha çox indi
Yuxusuz bənizə yaraşardı...

De -
Əllərin hardadı?

## AY

Yenə bədirləndi Ay!
Yenə daşlayır məni Tanrı
Tutub əlində Ay...

Ay haray,
Ay haray,
Ay
ay
ay!

## QAR

Canavarlar ulaşır bu gecənin içində!

Qar meşədə
Ağrısını kəsir ağır yaralının.

Qarı qucaqlayır o, açıb qollarını,
Qanısa bir tərəfdən
Əritməkdədir qarı...

Ağaclar donub kor meşədə!
Tel-budaqlarından axıb sallanır fevral -
Yarımşəffaf
Sırsıralar.

Canavarlar ulaşır bu gecənin içində...

Qan meşədə
Susuzluğunu kəsir canavarların.

## QARĞA SƏSİ

Günəşin qurutduğu torpağı gecə qan suvarar!
Dəlik-deşik sinədən quru torpağa,

Sonra
Qarğa sinəsinə dimdiyindən qan damlayar...

Qan dağılar səkiyə insan əli ilə
Susayanda
Qarğalar.

Qarrr
Qarr
Qar

## ABSENT?

Vinsent Van Qoqa

Qara bulud parçalanar yüzlərlə qarğaya -
Qanadlanıb səpələnər zəmi boyunca
Sonsuz səmaya...

Fırça diksindirər qəfildən taxta döşəməni!

Sağ əl uzanar tapançaya,
Sol əl
Güllə axtarışında...
Gözlərsə dikili tabloya -
Kətanı dimdikləri ilə yırta-yırta
Üstünə şığıyan qarğalara.

Heç bir halda
Heç bir halda
Heç bir halda
Çağırışsız gəlməz şizofreniya!

Çağırışıdır onun absent,
Əlvan palitra,
Nəm fırça -

SƏFA GƏTİRDİ YENƏ ŞİZOFRENİYA!

## SİLENTİUM

Mən Səndən qorxuram,
Ulu Tanrı.
Əllərimin qorxu təri ilə yazıram divarlara
Bəşər haqlarını.

Sovurdumu küləklər onu dərgahına?
Oxudunmu?

Mənim mürəkkəbim də bir azca
Tər qoxuyur axı...
Mənə inanma!

İnanma
Və bağışla.

## PİŞİK POEZİYASI

Şəhərin qaynar küçəsində maşın yolunu keçən
Azmış ev pişiyinin azadlığı kimidir
Mənim azadlıq sevincim.

Bütün sürətli maşınlar mənim üstümdən adlar,
Səkidə mənim ayaqlarımı tapdalayar
Tələsən insanlar.

İnsan ayaqlarının axınından gözlərim böyüyər,
Çağırmaz məni zərif səslər.
Səslər qovar,
İtələyər...

Pişik kədəridir duyduğum indi!
Pişik kədəri!

Gecələr qıvrılıb sığınaram bir qapıya fevralda,
Qucaqlayıb isidər üzümü zolaqlı quyruğum.
Səhərlər oyanaram kobud səsə,
Təpik altda.

Pişik kədəridir bu duyduğum!
Pişik kədəri!

## CİTY LİFE

İ.Brodskiyə

Düşündüklərimin,
Demək istədiklərimin
Və dediklərimin arasında
Bir şəhər salmaq olar, İosif ata...

İndi deyin görək,
Unudulmaqmı daha ağırdır,
Özündən parçalanmaqmı yoxsa?

Qorxum var
Paytaxt mərkəzində yürüməkdən;
Yürüdükcə
Zəncir səsləri eşidirəm.

Şizofreniya?
Deyil! Bakımız çox gözəldir.
Gəl ki hər bucağında
"Orta əsr oyuncaqları" gözümə girir.

## ÖLÇÜ

İndi pianist barmaqlarıyla
Pianonun dilləri arasındakı
Məsafə qədərdir
Mənim ömrüm...

Toxundumu bemola
Barmaqların ucları -

Ordaca alar canımı!